# Forum çərçivəsində müzakirələr innovasiyaların tətbiqində əhəmiyyətli rol oynayacaq

*"Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"u Azərbaycanın iqtisadi potensialını, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni əyani şəkildə ortaya qoymağa və ölkəmizin bu istiqamətdə beynəlxaq əməkdaşlıq imkanlarının artırmağa imkan verən platformadır.*

Bu il "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərdə energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin 600-dən çox nümayəndəsi iştirak edir. İştirakçılar siyahısına Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Belçika, BƏƏ, Bolqarıstan, Böyük Britaniya, Çin, Estoniya, Finlandiya, Fransa, İsveçrə, İtaliya, Macarıstan, Niderland, Norveç, Pakistan, Rumıniya, Rusiya, Qvineya-Bisau, Səudiyyə Ərəbistanı, Sloveniya, Türkiyə və Yaponiyadan olan şirkətlər daxildir. Bu il forumun proqramında 70-dən çox spiker yer alıb.

Bu onu göstərir ki, regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən "Bakı Enerji Həftəsi" həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma olaraq mühüm və gözlənilən hadisələrdən birinə çevrilib. Forum bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına töhfə verir.

"Bakı Enerji Həftəsi" əsasını müstəqil Azərbaycanın beynəlxalq ixtisaslaşmış sərgisi olan "Caspian Oil and Gas" sərgisindən götürüb. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış bu tədbir Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. Keçirildiyi 30 il ərzində "Bakı Enerji Həftəsi" Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə verib, dünyanın 80 ölkəsindən 9 mindən çox şirkəti, 170 mindən artıq ziyarətçini cəlb edib. Bu il sərgi iştirakçılarının 35 faizini yeni şirkətlər, qalanını isə xarici şirkətlər təşkil edir ki, bu da yüksək səviyyəli beynəlxalq əməkdaşlıqla yanaşı, yerli biznesin fəal iştirakını da bir daha nümayiş etdirir.



Ümumilikdə 1994-cü ildə təşkil edilən ilk neft-qaz sərgisindən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə sonralar "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən saziş imzalayıb.

Prezident İlham Əliyev öz çıxışında deyib ki, o zaman Azərbaycan müəyyən obyektiv səbəbdən xarici investorlar üçün riskli ölkə hesab edilirdi. Ölkədə vətəndaş qarşıdurması yeni başa çatmışdı, iqtisadiyyat iflic vəziyyətində idi, inflyasiya 1000 faizlə ölçülürdü və yoxsulluq hökm sürürdü. Bununla yanaşı, ərazilərimizin Ermənistan tərəfindən işğalı nəticəsində yüz minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdı. Belə bir şəraitdə həyata keçirilən uğurlu enerji siyasəti ölkəmizin iqtisadi inkişafı üçün aparıcı rol oynadı.

Məhz Azərbaycanın həyata keçirdiyi enerji layihələri sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edildi. Azərbaycan öz tərəfdaşları ilə birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etdi və bunlardan da ən önəmlisi Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3600 kilometrlik Cənub Qaz Dəhlizidir. Keçən dövr ərzində Azərbaycan bir sıra olduqca böyük uğurlara imza atdı və bu hər il özünü daha qabarıq şəkildə göstərir. Ölkə başçısının da dediyi kimi, əgər keçən il Azərbaycan 8 ölkəyə təbii qaz ixrac edirdisə, hazırda bu ölkələrin sayı 12-yə çatıb və artıq 25 milyard kubmetr qaz ixrac olunur. 2030-cu ilədək qaz ixracının daha 8 milyard kubmetrə qədər artırılacağı proqnozlaşdırılır.

Sadalananlara "yaşıl enerji" sahəsində həyata keçirilən siyasəti və əldə olunan uğurları da əlavə etsək, gəldikdə ölkəmizin enerji təhlükəsizliyindəki rolunu daha qabarıq şəkildə görmək mümkün olur. Cənab Prezident çıxışında bu məsələyə də toxunaraq artıq imzalanmış müqavilələrə və sərmayə öhdəliklərinə əsasən, ölkəmizin 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpaolunan enerji gücünə malik olacağını bildirdi. Bu isə bərpaolunan enerjinin bizim ümumi enerji istehsalımızın 35 faizdən çoxunu təşkil edəcəyi anlamına gəlir.

Forum çərçivəsində aparılan müzakirələr enerji sahəsində innovasiyaların tətbiqi, regional və qlobal əməkdaşlığın gücləndirilməsi, həmçinin dayanıqlı və çevik enerji sistemlərinin qurulması baxımından mühüm əhəmiyyət kəsb edəcək.

**Yusif BAĞIRZADƏ,**
**politoloq.**

Respublika .-2025.- 4 iyun (№115).- S.7.